Mərasimdə təhsil naziri Misir Mərdanov, nazirliyin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin müdiri Fərzəli Qədirov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Nailə Rzaquliyeva iştirak edib.

Təhsil naziri Misir Mərdanov seminarın keçirilməsini və bu tədbirdə şəhər məktəbləri ilə yanaşı bölgələrin ümumtəhsil müəssisə rəhbərlərinin iştirakını yüksək dəyərləndirib. Eyni zamanda nazir çıxışında məktəb direktorunun idarəetmə prinsiplərinə yiyələnməsi, məktəbin idarə olunmasında onlardan xüsusi istedad və qabiliyyət tələb olunması kimi məsələlərdən söz açıb.

Sonra nazir seminarın təşkilatçılarına minnətdarlığını bildirib, onun aparıcısı, ABŞ-ın Konnektikut Universitetinin professoru xanım Ketrin Maqnaya təşəkkür edib.

Tədbirdə seminarda iştirak etmiş direktorlara sertifikatlar təqdim olunub.